# Dağıstan Respublikasının başçısı Azərbaycanda yaşayan həmvətənləri ilə görüşüb





Dağıstanın Mədəniyyət Günləri çərçivəsində ölkəmizdə olan Rusiya Federasiyasının Dağıstan Respublikasının başçısı Ramazan Abdulatipov Azərbaycanda yaşayan həmvətənləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş Rusiya İnformasiya və Mədəniyyət Mərkəzində keçirilib.

R.Abdulatipov Dağıstan və Azərbaycan xalqlarını hər hansı sərhədlərlə bölməyin qeyri-mümkün olduğunu qeyd edib. Onlar əsrlərlə yanaşı yaşayıb, bir-birinə dəstək verib, ortaq tarix, mədəniyyət və adət-ənənələri var. R.Abdulatipov Dağıstanın dirçəlişi, onun iqtisadiyyatının gücləndirilməsi işləri barədə danışıb.

Dağıstan rəhbəri bildirib ki, Dağıstan və Azərbaycanın heç bir həll edilməmiş problemi yoxdur, iki ölkə arasında əməkdaşlıq bütün sahələrdə uğurla inkişaf edir.

Qeyd edilib ki, Dağıstanın təklifi ilə Moskvada Rusiya xalqlarının ənənəvi mədəniyyəti mərkəzi yaradılıb, həmçinin "Biz Rusiyanın çoxmillətli xalqıyıq" adlı layihə icra olunur. R.Abdulatipov Bakıda da bənzər mərkəzin yaradılmasına köməyini təklif edib.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri Kamal Abdullayev qeyd edib ki, tarix boyu Azərbaycanda multikulturalizm prinsipləri, burada və qonşu ərazilərdə yaşayan müxtəlif xalqların və dinlərin nümayəndələri arasında qarşılıqlı anlaşma və hörmət olub. Azərbaycan və Dağıstan xalqları arasında mövcud olan dostluq münasibətlərini nümunə kimi qeyd edən K.Abdullayev xatırladıb ki, Azərbaycanı erməni təcavüzkarlarından müdafiə edən və döyüş meydanında şəhid olanlar arasında Dağıstan əsilli azərbaycanlılar da az deyil. Dövlət müşaviri bu əlaqələrin saxlanılması və inkişaf etdirilməsi siyasətində Heydər Əliyevin əvəzsiz rolunu vurğulayıb. Ölkənin hazırkı rəhbərliyinin də prioritet vəzifə kimi bu yolu seçməsi qeyd edilib. Belə ki, bu gün Prezident İlham Əliyev ulu öndərin siyasətinin layiqli davamçısıdır, cəmiyyətdə tolerant həyat tərzinin saxlanılmasına xüsusi diqqət yetirir.

"Samur" ləzgi qəzetinin redaktoru Sədaqət Kərimova, Milli dəyərlər və mədəniyyətlərin inkişafına dəstək üzrə "LARS" İctimai Birliyinin sədri Maqomed İsayev, "Alam" ləzgi jurnalının redaktoru Abir Tahirov, "Dərbənd" Xeyriyyə Cəmiyyətinin sədri Nurulla Əliyev rəhbərlik etdikləri strukturların fəaliyyətindən, gənc nəslin doğma dil, tarix və mədəniyyəti öyrənməsi üçün burada keçirilən tədbirlərdən danışıblar. Qeyd olunub ki, diaspora Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edir, əcdadlarının ənənələrinə hörmətlə yanaşır, gənclərə öz tarixi köklərinə sevgi aşılayır. Mahaçqala və Bakıda mədəni tədbirlərin, yaradıcılıq gecələrinin keçirilməsinə ehtiyacın olduğu vurğulanıb.

R.Abdulatipov ləzgi və avar dillərində dərsliklərlə təminat probleminin həllinə kömək edəcəyini vəd edib.

Xatırladaq ki, Azərbaycanda Dağıstanın Mədəniyyət Günləri çərçivəsində qardaş ölkədən incəsənət ustaları, mədəniyyət xadimlərindən ibarət 250-dən çox adam gəlib. Mədəniyyət günləri Zaqatala, Xaçmaz, Qusar rayonlarında da keçirilir.